**Bankların həvəsləndirici kampaniyaları nağdsız ödənişlərin inkişafına təkan verir…**

«AtaBank» ASC-nin Departament direktoru Teymur Axundov «Nağdsız ödəniş vasitələrinin inkişafında bankların rolu» mövzusunda çıxışında bildirmişdir:

- Azərbaycanın bank sektorunun liderlərindən olan «AtaBank» ASC respublikanın ödəniş kartları bazarında kartların sayına, ekvayerinq şəbəkəsinin genişliyinə, elektron xidmətlərin çeşidinə görə xüsusi çəkiyə sahibdir. Bank «İnternet banking», «Card-to-card», «PIN change», «SMS banking», «3D Secure» kimi modern xidmətləri də həyata keçirir. 1 noyabr 2012-ci il tarixinədək bank tərəfindən emissiya edilib dövriyyəyə buraxılan plastik kartların sayı 22500-ü keçmiş, bankomatların sayı 72-yə çatmışdır.

«2013-cü ilin əvvəlində isə «AtaBank» «MasterCard Europe Sprl» beynəlxalq ödəniş sisteminin tamhüquqlu üzvü kimi «MasterCard» kartları da dövriyyəyə buraxacaqdır. 2012-ci ilin əvvəlində bankın ticarət, ictimai-iaşə və xidmət obyektlərində quraşdırılmış retail tipli POS-terminallarının sayı 604 olduğu halda, noyabr ayında bu rəqəm 9371-ə çatmışdır. Quraşdırılmış POS-terminalların sayına görə «AtaBank» ASC banklar arasında 1-ci yerdədir. Bank təsərrüfat subyektlərində POS-terminallarla ödəniş qəbul edən əməkdaşların plastik kartlar və elektron ödənişlər sahəsində bilik səviyyəsinin artırılması məqsədilə müxtəlif treninq və seminarlar, maarifləndirmə tədbirləri keçirmişdir. Bunun nəticəsidir ki, hazırda bankın POS-terminalları vasitəsilə aparılan əməliyyatların gündəlik sayı orta hesabla 500-700 ədəd təşkil edir.

Elektron ödəniş sistemlərinin təkmilləşdirilməsi, nağdsız ödəmələrin stimullaşdırılması məqsədilə «AtaBank» ASC 15 dekabr 2011-ci il tarixindən etibarən başladığı «Nağdsız ödə, nağd qazan» stimullaşdırıcı lotereya kampaniyasını uğurla davam etdirir. Kampaniya başlandığı vaxtdan bu günədək bankın POS-terminalları vasitəsilə aparılan əməliyyatların həcmi üç dəfədən çox artmışdır. Qaydalara uyğun olaraq, lotereyada təqvim ayı ərzində minimum 50 manat məbləğində nağdsız əməliyyatlar aparan kart istifadəçiləri 2 ədəd kupon əldə edirlər.

2013-cü ilin fevral, mart və aprel aylarında «Neptun» supermarketlər şəbəkəsində «Visa Inc» beynəlxalq ödəniş sistemi tərəfindən milli kampaniyanın keçirilməsi məqsədilə razılıq əldə olunmuşdur. Milli Kampaniya çərçivəsində 3 ay ərzində yalnız «Neptun» supermarketlər şəbəkəsində bank-emitentdən asılı olmayaraq «Visa» kartı ilə alış-veriş edənlər məbləğdən asılı olaraq müxtəlif hədiyyələr əldə edəcəklər.

Bir sözlə, «AtaBank» ölkədə sahibkarlığa, o cümlədən bank sektoruna göstərilən yüksək diqqət müqabilində üzərinə düşən məsuliyyəti düzgün müəyyənləşdirərək ölkə iqtisadiyyatının inkişafı prosesinə öz töhfəsini verməyə çalışır. Bu sahədə həm dövlət orqanlarının, həm maliyyə-bank sektorunun, həm də ayrı-ayrı hüquqi və fiziki şəxslərin üzərinə böyük məsuliyyət düşür. Nağdsız ödənişlərin yayılması və reqlamentinin artırılması prosesində dövlət qurumları, biznes strukturları ilə bərabər, kütləvi informasiya vasitələrinin də fəallığı təmin olunmalıdır.